*Qədim Diyar* Avqust 2026, Cild: 8, Sayı: 8, s. 107−117
*Ancient Land* August 2026, Volume: 8, Issue: 8, pp. 107−117
DOI: https://doi.org/10.36719/2706-6185/62/107-117

# Yaşayış məskənlərinin və evlərinin keçib gəldiyi tarixi inkişaf yolu (Şəki-Zaqatala zonasının yaşayış evləri)

**Sevil Mirzəliyeva**

***Xülasə.*** *Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi dünyada insanın formalaşdığı ilk məskənlərdən biri hesab olunur. Davamlı olaraq yaşayış məskənləri olmuş bu torpaqlar cəmiyyət tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən zəngin abidələr diyarıdır. Bu abidələr əsasən ibtidai insanların sığınacaqları olmuş təbii və süni mağaralardan başlayaraq yaşayış məskənlərinin qədim dövrlərdən indiki dövrə qədər keçdiyi tarixi inkişaf yolunu əks etdirən maddi-mədəniyyət nümunələridir. Yaşayış məskənlərinin təkamülünün öyrənilməsi xalqın maddi mədəniyyətinin, etnoloji xüsusiyyətlərinin və ənənəvi tikinti sənətinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Xalq yaşayış evlərinin formalaşmasında təbii-coğrafi şərait, əhalinin təsərrüfat fəaliyyəti, yerli tikinti materialları və digər amillər müəyyənedici rol oynamışdır. Bu amillərin təsiri ilə xalq yaşayış evləri müxtəlif tipdə və növdə olmuş, sadə formalı ilkin yaşayış məskənlərindən müasir yaşayış evlərinə qədər uzun və tarixi inkişaf yolu keçmişdir. Bu baxımdan ölkə ərazisində təbii-coğrafi şəraitə uyğun olaraq hər zonanın özünə məxsus yaşayış evi fondu formalaşmışdır. Məqalənin məqsədi yaşayış məskənlərinin tarixi inkişaf yolunu nəzərdən keçirmək, həmçinin Şəki-Zaqatala zonası ərazisində əhalinin yaşayış evləri fondunu təşkil edən müxtəlif tipli evlərin etnoqrafik və memarlıq xüsusiyyətlərini araşdırmaqdır.*

***Açar sözlər:*** *yaşayış məskənləri, Şəki-Zaqatala zonası, işıqlı evlər, buxarı, divar peçi, abidə*

---

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu, Şəki, Azərbaycan
E-poçt: sevil.mirzeliyeva55@gmail.com
Daxil oldu: 6 Aprel 2026; 22 İyul Qəbul edildi: 2026; Onlayn dərc edildi: 28 Avqust 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

# The Historical Development of Human Settlements and Residential Houses (Residential Houses of the Sheki-Zaqatala Region)

**Sevil Mirzaliyeva**

***Abstract.*** *The territory of Azerbaijan, characterized by favourable natural and geographical conditions, is considered one of the earliest regions of human settlement in the world. Continuously inhabited throughout history, these lands constitute a realm rich in monuments reflecting different stages of societal development. These monuments are tangible cultural heritage reflecting the historical evolution of settlements from ancient times to the modern era, starting from natural and man-made caves that*

*primarily served as shelters for primitive humans. Investigating the evolution of human settlements is of paramount importance in terms of examining the material culture, ethnological characteristics, and traditional building craftsmanship of the population. Natural and geographical conditions, economic activities, local building materials, construction techniques, social life, and family-domestic relations served as primary factors in shaping traditional vernacular dwellings. Under the influence of these factors, vernacular housing acquired diverse typological characteristics, undergoing a long and complex development from simple primitive shelters to modern residential structures. Accordingly, distinct regional housing stocks emerged across the diverse physical-geographical zones of Azerbaijan, adapted to local conditions. The objective of this article is to provide an overview of the historical development of settlements, as well as to analyse the ethnographic and architectural characteristics of the various dwelling types that comprise the housing stock in the Sheki-Zaqatala region.*

***Keywords:*** *human settlements, Sheki-Zaqatala region, "ishigli evler" (daylit houses), "bukhari" (open fireplace), wall stove, monument*

---

State Tourism Agency of the Republic of Azerbaijan Sheki "Yukhari Bash" National Historical-Architectural Reserve, Sheki, Azerbaijan
E-mail: sevil.mirzeliyeva55@gmail.com
Received: 6 April 2026; Accepted: 22 July 2026; Published online: 28 August 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Azərbaycan insan və bəşəriyyət tarixinin ən qədim beşiklərindən biri kimi dərin və zəngin köklərə malikdir. Ölkəmizin ərazisində həyatın çox erkən dövrlərdən başlandığını təsdiq edən Azıx mağarasındakı tapıntılar, Qobustan və Gəmiqayadakı qayaüstü rəsmlər, eləcə də Kür-Araz və Xocalı mədəniyyətlərinə məxsus maddi-mədəniyyət nümunələri minilliklər əvvəl bu torpaqlarda zəngin və özünəməxsus sivilizasiyanın mövcudluğunu sübut edir. Tarixin müxtəlif mərhələlərində ulu əcdadlarımız bu əzəli torpaqlarda məskən salmış, təbii mühitə uyğunlaşaraq özlərinə sığınacaqlar və ilk yaşayış məskənləri yaratmışlar. İbtidai mağaralardan başlayaraq müasir dövrə qədər davam edən bu tarixi inkişaf yolu xalqımızın memarlıq, tikinti mədəniyyəti və həyat tərzinin formalaşmasında mühüm mərhələ təşkil edir.

Məhz bu tarixi-mədəni kontekstdə ölkənin coğrafi rəngarəngliyi və təbii xüsusiyyətləri yerli yaşayış evlərinin memarlığına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Azərbaycanın ən füsunkar və tarixi bölgələrindən biri olan Şəki-Zaqatala zonası özünəməxsus təbii landşaftı, relyefi və iqlim şəraiti ilə seçilir. Bu coğrafi mühit əsrlər boyu yerli əhalinin tikinti adətlərini, material seçimini və məkan planlaşdırmasını müəyyənləşdirmişdir. Bölgənin qədim yaşayış məskənləri və evləri xalqın əsrlər boyu topladığı tikinti təcrübəsinin, estetik zövqünün və həyat tərzinin canlı daşıyıcısıdır.

## Metodlar

Tədqiqatda tarixi-müqayisəli, etnoqrafik və memarlıq təhlili metodlarından istifadə olunaraq ölkə ərazisində yerləşən yaşayış məskənlərinin və yaşayış evlərinin inkişaf mərhələləri sistemli şəkildə araşdırılmışdır. Mənbələrin müqayisəli təhlili, mövcud elmi ədəbiyyatın ümumiləşdirilməsi və memarlıq-planlaşdırma xüsusiyyətlərinin qiymətləndirilməsi əsasında yaşayış məskənlərinin formalaşmasına təsir göstərən tarixi, sosial və təbii amillər müəyyən edilmişdir.

## Nəticələr

Şəki-Zaqatala ərazisində yaşayış məskənlərinin və yaşayış evlərinin keçib gəldiyi tarixi inkişaf yolunu özündə əks etdirən tikililər – yaşayış evləri bölgənin uzunmüddətli tarixi inkişafının, etnomədəni xüsusiyyətlərinin və yerli memarlıq ənənələrinin formalaşmasının mühüm göstəricilərindən biri olmuşdur. Bu tikililər yalnız məişət tələbatını ödəyən yaşayış məkanları deyil, həm də xalqın memarlıq təfəkkürünü, inşaat texnologiyalarını, estetik zövqünü və sosial-mədəni həyat tərzini özündə əks etdirən qiymətli maddi-mədəni irs nümunələridir. Tarixi-memarlıq dəyərinə malik olan bu yaşayış evlərinin qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi milli memarlıq irsinin davamlılığının təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, Şəki şəhərində və zonanın digər yaşayış məntəqələrində yerləşən tarixi yaşayış evlərinin (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarında dəyişiklik edilməsi haqqında Qərar, 2021) mühafizə olunması ölkənin mədəni irs siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

## Müzakirə

Arxeoloji tədqiqatların nəticələri sübut edir ki, Azərbaycan ərazisində yaşayış məskənlərinin formalaşması Paleolit dövründən (Azərbaycan etnoqrafiyası, 2007, s. 16) başlanmışdır. Əldə edilmiş elmi faktlar təbii və süni sığınacaqlardan müasir kənd, qəsəbə və şəhərlərə qədər uzanan məskunlaşma prosesinin təkamülünü və inkişaf mərhələlərini izləməyə imkan verir. İnsanların hələ fiziki və tarixi inkişafının ən qədim çağlarında bir canlı varlıq kimi, daldalanacağa və sığınağa yemək-içmək qədər təbii ehtiyacları olmuşdur. İbtidai insanların ilk yaşayış məskənlərinin yaradılmasında coğrafi mühitin, o cümlədən iqlim və landşaftın böyük təsiri olmuşdur. Arxeoloq İ. M. Cəfərzadə "Azərbaycan tarixinin ən qədim dövrü" adlı məqaləsində yazır ki, ibtidai insanlar Azərbaycan şəraitində çay kənarlarında, meşələrdə, qaya altında və mağaralarda yaşamışlar. Qayaaltı sığınacaqlarda və mağaralarda yaşayan insanlar özlərini istidən, soyuqdan qoruyur və əldə etdikləri odu, topladıqları ərzağı da burada mühafizə edirdilər. Təbii mağaralar insanların ilk başlanğıc sığınacağı hesab edilir (Cəfərzadə, 1956, s. 11–12).

Təbii mağaralarda yaşayan ibtidai insanlar ilk zamanlar mağaradaxili şəraitə uyğunlaşmağa başlamış, orada heç bir süni dəyişiklik etmək iqtidarında olmamışdılar. Lakin, tarixi inkişaf prosesinin sonrakı mərhələlərində insanlar təbii materiallardan (daşdan, ağacdan, sümükdən və s.) əmək alətləri hazırlamaq vərdişlərinə yiyələndikcə, mağaradaxili yerləşkələrdə divar açırımları düzəltmək, yanan odun tüstüsünü bayıra çıxarmaq üçün tavandan bacalar açmaq kimi zəruri işləri görməyə başlamışdılar. Beləliklə, ibtidai insanların təbii mağaraları öz iradələrinə uyğun şəkildə yenidən qurmaq və təkmilləşdirmək vərdişləri nəticəsində yaşayış məskənlərinin yeni bir tipi – süni mağara məskənləri yaranmışdır. Süni mağaralar bir məskən kimi çox uzun bir inkişaf prosesi keçirmişdir. Onu da qeyd etmək lazımdır ki, ibtidai insanlar süni mağaralardan yalnız yaşamaq üçün deyil, ölülərini dəfn etmək üçün də istifadə etmişdilər (Salamzadə və Sadıqzadə, 1961, s. 9).

Azərbaycanın cənub əyalətlərində vaxtilə Manna və Midiya dövlətlərinə məxsus olan ərazilərdə xeyli təkmilləşdirilmiş bir formada süni mağaralara – mağara mədfənlərinə təsadüf olunur. Fəxrik, Dükani-Davud, Səhneyi-utaqi-Fərhad adları ilə məşhur olan mağara mədfənləri, aparılmış arxeoloji qazıntıların nəticələrinə görə Midiya dövrünə, qismən isə Manna dövləti dövrünə aid olunaraq e.ə. VIII əsrdən VI əsrədək olan dövrü əhatə edir (Rzayev, 1992, s. 42). Mağara mədfənlərinin öyrənilməsi qədim yaşayış məskənlərinin memarlığı və planlaşdırılması haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. Midiya mağara mədfənləri, adətən, bir-birinə yanaşı iki küyüldən (yerləşgədən) ibarət olur. Qabaq küyül Azərbaycanda geniş yayılmış ant tipli evlərin eyvanına oxşayan görkəmdə fasad tərəfdən iki sütuna malikdir. İkinci küyül eyvanın arxasında yerləşərək,

onunla xüsusi boşluq vasitəsilə əlaqələndirilir. Mağara mədfənləri insanların özlərini müdafiə edə bilmələri üçün bir qayda olaraq yer səthindən xeyli hündürdə, dik qayalarda çapılmış olurdu.

Adları sadalanan tikililər – mağara mədfənləri bəzi mənbələrdə qaya sərdabələri (Rzayev, 1992, s. 42) kimi də qeyd olunur. Məlum olduğu kimi, qədim insanlar mağaralardan yalnız yaşayış məskəni kimi deyil, ölülərini dəfn etmək üçün də istifadə etmişdilər, bu baxımdan həmin tikililərin sərdabə adlandırılması təsadüfi deyildi.

Mağara tipli yaşayış məskənlərinin inkişafının sonrakı mərhələlərində, insanlar daş hörgü vərdişinə yiyələndikdən sonra yaşayış yerlərinin tikilişi tədricən dik qayalardan, dağlardan dağ yamaclarına köçürülmüş oldu. Yaşayış məskənlərinin yeni mövqelərdə tikintisi yeni memarlıq xüsusiyyətlərinə malik yaşayış evi tipinin meydana çıxmasına səbəb olmuşdur. Bu tip evlər qarşısında daşdan tikilmiş eyvanla bir küyüldən ibarət olurdu. İlk mərhələdə küyülün eyvana bitişik qabaq divarı daşdan hörülür, arxa və yan divarlarını isə yoxuşun dik çapılmış səthi əvəz edirdi. Sonralar getdikcə arxa və yan divarlar da daş hörgüsü ilə əvəz olunaraq, süni mağara tipli məskənlər *qaradam* (Salamzadə və Sadıqzadə, 1961, s. 13–14) formasına keçid etmiş oldu.

Beləliklə, Neolit dövründə Azərbaycanı özünə məskən etmiş insanların tikinti fondunda təbii və süni mağara, qazma, yarımqazma, çay daşı, çiy kərpic, möhrə palçıqdan hörülmüş dördkünc və dairəvi planda olan bir yerləşgəli yaşayış tikintiləri mövcud idi (Həbibullayev, 1959, s. 16–19, 24; Həsənova, 2020, s. 165). Bu evlərdə açıq ocaq, taxıl quyusu, bəzilərində ərzaq və heyvanların saxlanması üçün xüsusi yerlər olurdu. Zaman keçdikcə, istehsal qüvvələrində baş vermiş inkişaf nəticəsində əhalinin tikinti mədəniyyətində də dəyişikliklər baş verir, bu da yeni-yeni yaşayış evi tipləri və növlərinin meydana gəlməsinə səbəb olurdu. Xalq yaşayış evi tiplərinin yaranmasında ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat materialları, tikinti texnikası, ictimai həyat və ailə məişəti müəyyənedici rol oynamışdır. Məhz bu təsirlər nəticəsində xalq yaşayış evləri müxtəlif tipoloji xüsusiyyətlər qazanmış, təbii mağaralardan (zağa, kaha, sığnaq, kühül) müasir yaşayış evlərinə kimi mərhələli inkişaf prosesi keçmişdir. Azərbaycanın müxtəlif təbii-coğrafi zonalarında mövcud şəraitə uyğun olaraq hər zonanın özünəməxsus yaşayış evi fondu formalaşmışdır.

Qeyd olunduğu kimi, xalq yaşayış evlərinin tip və növlərinin yaranmasında, inkişafında hər zonanın özünəməxsus tikinti materiallarının və onların istehsalının olması əsas rol oynamışdır. Bu baxımdan ta qədimdən Şəki-Zaqatala ərazisində bişmiş kərpic və kirəmit istehsalının (Nəbiyev, 2023, s. 137–138) olması zonanın yaşayış evlərinin tikintisinə öz müsbət təsirini göstərmişdir. Araşdırmaların nəticələrinə əsasən, xalq yaşayış evləri xalqın həyatını, məşğuliyyətini öyrənmək üçün ən etibarlı maddi mədəniyyət abidələri sayılır. Bu məqsədlə bütün dünyada olduğu kimi, ölkə ərazisində də yaşayış zonalarında fərdi yaşayış evlərini öyrənmək, tip və növlərini müəyyən etmək üçün zona əhalisinin yaşadığı evlərdə, həmçinin yazılı mənbələrdə araşdırmalar aparılmış, əhalinin tikinti mədəniyyəti öyrənilmişdir. Hələ XX əsrin I yarısından yerli alimlər tərəfindən təşkilatlanmış şəkildə, elmi əsaslarla yaşayış evlərinin öyrənilməsinə başlanılmışdır.

Belə ki, 1921-ci ildə M. H. Vəliyevin "Azərbaycan. Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerklər" adlı etnoqrafik problemləri əhatə edən əsəri çap olunmuşdur. Həmin illərdə (1923-cü ildə) Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdır. Cəmiyyətinin fəaliyyəti maddi və mənəvi mədniyyətin, o cümlədən ənənəvi evlərin öyrənilməsində xüsusi bir mərhələ təşkil edir. Üç şöbədən (1. Türkoloji, 2. İctimai iqtisadi və 3. Tarixi-etnoqrafik) ibarət olan cəmiyyət Azərbaycanı elmibaxımdan hərtərəfli və dərindən tədqiq edib öyrənməyi qarşısınaməqsəd qoymuşdur. "Cəmiyyətin "Xəbərlər"ində ilk Azərbaycan etnoqraflarından Q. T. Qaraqaşlının, Ə. K. Ələkbərovun, M. V. Quliyevanın, D. Şərifovun dərc etdirdikləri yazılarda xalqımızın maddi mədəniyyəti – yaşayış evləri haqqında ətraflı məlumatlar toplanmışdır.

Tarixi inkişaf prosesində Şəki-Zaqatala yaşayış evləri sadə yarımqazma tiplərindən mərtəbəli və eyvanlı yaşayış evlərinə doğru mürəkkəbləşmə yolu keçmiş, yerli xalqların məişət tərzi ilə sıx bağlı şəkildə təkamül etmişdir. Aparılmış tədqiqatların nəticələri göstərir ki, Şəki-Zaqatala zonası əhalisinin vaxtilə istifadəsində olmuş və hazırda istifadə etdiyi yaşayış evləri, yerli əhali tərəfindən bir neçə adda səciyyələndirilmişdir. Yerli əhali yaşadıqları fərdi yaşayış evlərini onların plan quruluşu, tikildikləri inşaat materialının növü, tikinti qayda və üsulları, eləcə də başqa əlamətlərinə görə bir-birindən fərqləndirirdilər.

Həmin evlər əhali tərəfindən zona daxilində şərti olaraq aşağıdakı adlarla (Nəsirli, 1975, s. 43) təsnif olunmuşdur:
1. Pəyə evlər; 2. Daxma evlər; 3. Kərtmə evlər; 4. Cığ evlər; 5. Cımqa evlər; 6. Çubuqhörmə və ya çitəmə evlər; 7. Daxal evlər; 8. Daşqura evlər; 9. Qışlaq çoban yaşayış evi (dəyə) və ya qazmalar; 10. Qala yaşayış evləri; 11. İşıqlı evlər (qədimi, ənənəvi, müasir işıqlı evlər). İşıqlı evlər qrupundan olan evlər özlərinin plan quruluşları, daxilindəki məişət memarlıq elementləri və tikiliş texnikasının müxtəlifliyi ilə də bir-birindən fərqlənir. Məhz bu fərqlər nəticəsində bu tip evlər üç qrupa bölünür: 1. Qədimi işıqlı evlər, 2. Ənənəvi işıqlı evlər, 3. Müasir işıqlı evlər.

Bütün bu fərdi yaşayış evi tipləri ayrı-ayrılıqda uzun illər, əsrlər boyu müxtəlif ictimai-iqtisadi dövrlərdə yaranmış, formalaşmış, özünün sadə formasından müasir inkişaf səviyyəsinə qədər yüksəlmişdir. Odur ki, yaşayış evləri zona əhalisinin keçirdiyi həyat tərzini və mövcud olduqları yerin təbii iqlim şəraitinin təsirlərinin izlərini özündə saxlamışdır. Bu cəhətdən adları sadalanan ev tipləri xalqın ictimai həyat və maddi mədəniyyət tarixinin şahidləri kimi qalır. Hazırda Şəki-Zaqatala zonasının ərazisində əhalinin istifadəsində olan fərdi ailə yaşayış evləri fondunu təşkil edən evlərin az hissəsi XVIII əsr, bir qismi XIX əsr, çoxu isə XX əsrin əvvəllərində inşa edilən evlərdir. Bu baxımdan zonanın yaşayış evləri fondunun tərkibi müxtəlif xüsusiyyətli yaşayış evi tipləri ilə zəngindir.

Yuxarıda qeyd olunduğu kimi, ölkə ərazisində təbii-coğrafi şəraitə uyğun olaraq hər zonanın özünəməxsus yaşayış evi fondu formalaşmışdır, bununla yanaşı, hər zonanın özünün tərkibində olan hər bir rayonun (şəhərin) xüsusi memarlıq üslubu ilə seçilən yaşayış evləri formaları da yaranmışdır. Şəki-Zaqatala zonasının coğrafi-iqlim şəraiti və yerli tikinti materiallarının (çiy kərpic, daş, ağac) xüsusiyyətləri bölgənin yaşayış evlərinin təkamülündə, xüsusən də evlərin plan-məkan quruluşunun formalaşmasında əsas rol oynamışdır. Bu cəhətdən Şəki evləri bir sıra tipik xüsusiyyətləri ilə seçilir.

Şəki şəhəri uzun əsrlər boyu böyük bir ərazinin inzibati mərkəzi olmuşdur (Nəsirli, 1975, s. 131). Bu səbəblə də ərazinin varlı, zadəgan hissəsi (tacirlər, ipək, gön və digər sənaye sahibləri, sənətkarlar, məmurlar) burada yaşamağa üstünlük vermişdilər. Onların ehtişamlı ictimai və yaşayış binaları, Şərq memarlıq üslubunda tikilmiş Şəkixanovların yaşayış iqamətgahı, XIX əsr Avropa şəhərlərinə xas iki-üç mərtəbəli çoxyerləşgəli yaşayış evləri də burada tikilmişdir. Təbiidir ki, belə bir inkişaf etmiş tikinti mədəniyyətinə malik olan Şəki şəhəri bütün zonaya təsir etməmiş olmazdı. Kəndlərdə sakin olan varlı kəndlilər də öz evlərini Şəki şəhəri evlərinə oxşatmağa cəhd etmişdilər. Nümunə olaraq, Şəkinin Baş Layısqı kəndindəki Yüzbaşı Surxaya məxsus olan iki mərtəbəli yaşayış evini (tikinti tarixi binanın fasadında hicri təqvimi ilə 1323-cü il qeyd olunub) və başqalarını göstərə bilərik. Bunun nəticəsidir ki, Şəki-Zaqatala iqtisadi-coğrafi zonasının bütün şəhər, qəsəbə və kənd əhalisinin yaşayış evi fonduna nəzər saldıqda orada Şəki şəhərinin tikinti mədəniyyətinin təsiri altında inşa edilmiş, memarlıq və tikinti texnikası cəhətdən tam oxşarlıq təşkil edən çoxlu sayda tikintilərə rast gəlinir.

Şəkidə (xüsusən kəndlərdə) təsərrüfatın əsas sahələrini ipəkçilik, tütünçülük və əkinçilik təşkil etdiyi üçün inşa edilən evlərdə ipəkqurdularının bəslənməsi üçün çardaq hissəsinə daha çox diqqət yetirilirdi. Belə ki, bir çox evlərdə çardaq yerləşgəsinin döşəməsindən 1-1,5 metr hündürlüyə kimi ağac dirəklər və ya kərpic sütunlar işlənərək, çardaq konstruksiyası onların üzərində qurulurdu. Bu da dam

çardağının həcminin genişlənməsinə səbəb olurdu. Belə tipdə qurulan dam çardaqları nəinki ipəkqurduların bəslənməsi, həmçinin tütün qurudulması üçün də əlverişli hesab olunurdu. Eyni zamanda, kənd əhalisi məşğul olduqları təsərrüfat növündən asılı olaraq həyətyanı torpaq sahələrində yaşayış evindən başqa, əlavə talvarlar, yardımçı tikililər də inşa edirdilər.

XVIII-XIX əsrlərdə Şəki ipək istehsalında bütün Qafqazda əsas yer tuturdu (Salamzadə və Sadıqzadə, 1961, s. 145–146). Həmin tarixi mərhələdə Şəki qonşu ölkələrlə geniş ticarət münasibətləri qurmuş, yüksək səviyyədə inkişaf etmiş peşəkar və kustar sənayeyə sahib idi. İpəkçilik sənayesinin sürətli inkişafı bir çox sahələrin: sənətkarlıq, ticarət, iqtisadiyyatın yüksəlişi ilə yanaşı, yeni-yeni yaşayış evlərinin, mülklərin tikintisinə də səbəb olmuşdur. Həmin dövrdə Şəkili sahibkarlar əldə etdikləri gəlirlərdən fabrik, sex, dükan binaları ilə yanaşı, yaraşıqlı yaşayış evləri də inşa edirdilər. Bu cür evlər əsasən şəhərin mərkəzində, ticarət küçəsində inşa edilirdi. Ticarət küçəsində (Salamzadə və b., 1979, 64 s.) inşa edilən evlər, adətən, iki və ya üç mərtəbəli olurdu. Birinci mərtəbədə dükanlar, emalatxanalar, istehsalat sahələri, ikinci mərtəbədə isə ailə üzvlərinin yaşayışı üçün otaqlar nəzərdə tutulurdu. Eyni dövrdə Şəkidə sənətkarlar məhəllələrində inşa olunan evlər də öz fərdiliyi ilə seçilirdi.

İndi isə, Şəki şəhəri ərazisində günümüzə gəlib çatan zona əhalisinin tikinti fonduna daxil olan bir neçə yaşayış evinin memarlıq və tarixi-etnoqrafik xüsusiyyətləri ilə tanış olaq.

*1. M. F. Axundovun yaşayış evi (inv. nömrəsi 5688)*



Azərbaycan dramaturgiyasının banisi M. F. Axundovun doğulub, uzun müddət yaşadığı ev (Məmmədova, 2008, s. 59) Şəki şəhəri, Gəncəli məhəlləsində yerləşir. Yazılı mənbələrdə evin 1800-cü illərdə tikildiyi deyilir. Yaşayış evini zona əhalisinin təsnif etdiyi işıqlı evlər tipinə (ənənəvi işıqlı evlər) aid etmək olar. Niyə bu tip evlər “işıqlı evlər” adlandırılmışdır? – Bu ad həmin evlərin daxili hissələrinin qara dam, qazma və sairə pəncərəsiz evlərə nisbətən işıqlı olması nöqteyi-nəzərdən verilmişdir. Azərbaycanın görkəmli etnoqrafı Ə.Ələkbərov da ölkə ərazisində bu tip evləri şərti olaraq *işıqlı evlər* (Nəsirli, 1975, s. 80) adlandırmışdı. Memarlıq ədəbiyyatında isə, bu cür evlər “ant evlər” adı ilə də ifadə edilir.

Bir mərtəbəli yaşayış evi iki otaq, bir eyvan və zirzəmidən ibarətdir. Evin bünövrəsi və zirzəmi qatı çay daşından, divarları isə kvadrat formalı olan çiy kərpicdən hörülmüşdür. Evin otaqlarından biri böyük, o birisi isə kiçikdir. Hər iki otağın hündürlüyü 230 sm-dir. Otaqların tavanı açıqdır, tirlərin üzəri əlavə taxta ilə örtülməmişdir.

Böyük otağın ikitaylı bir qapısı eyvana, ikinci qapısı isə kiçik otağa açılır. Həmin otağın bir pəncərəsi eyvana, iki eyni ölçülü pəncərəsi isə arxa divardan həyətə açılır. Otağın baş divarında ortada buxarı, onun hər iki yanında iki ədəd (biri kiçik, o biri böyük həcmli olmaqla) taxça yerləşir. Otağın digər divarları da bu cür məişət memarlıq elementləri ilə zəngindir. Kiçik otağın ön divarında eyvana açılan ikitaylı qapı, sol divarında böyük həcmli iri taxça yerləşir. Həmin dövrdə taxçaya böyük ərzaq sandığı, həmçinin qab-qacaq da qoyulardı. Taxçanın yanında buxarı, onun da yanında kiçik həcmli taxça vardır. Digər divarda həyətə açılan bir ədəd pəncərə yerləşir. Hər iki otağın pəncərələri döşəmədən 60 sm, yük yerləri 20 sm, kiçik və iri həcmli taxçalar isə 100 sm hündürlükdə yerləşir. Hər iki otağın dörd divarı boyaboy rəflə təchiz edilmişdir.



Evin eyvanı iki tərəfdən divar, ön tərəfdən isə 6 ədəd ağac sütunla əhatə edilmişdir. Eyvanın uzunluq divarında iki qapı və bir pəncərə açırımından başqa, iki otaq qapıları arasında iri həcmli taxça da mövcuddur. Yan divarların birində isti havalarda yemək hazırlamaq üçün ocaq yeri, digərində isə çardağa qalxmaq üçün pilləkən quraşdırılmışdır. Otaqlarda olduğu kimi, eyvanın da divarları boyu rəf mövcuddur. Yaşayış evinin divarları ağ torpaqdan hazırlanmış singir suvaqla suvanmışdır. Evin dördsinəli (yamaclı) dam örtüyü əvvəl taxta olmuş, lakin XIX əsrin ikinci yarısından sonra kirəmitlə (Nəsirli, 1975, s. 102–103) örtülmüşdür. Zonanın hər yerində olduğu kimi, evin buxarılarının tüstüsü çardağın altına çıxır.

XVIII əsrdə bu tip evlərin yığışdırılması, səliqə-sahmana salınması özünün daxili məişət memarlıq elementləri əsasında aparılırdı. Belə ki, döşəmə xalça-palazla örtülər, yorğan-döşək yük yerlərinə, bir çox əşyalar da taxçalara yığılardı. Qab-qacaq da rəflərə düzülərdi. Divarın içində xüsusi olaraq hazırlanmış kiçik oyuq və ya taxçalara çıraq qoyulardı. Bu taxçalara çox vaxt çıraqdan da deyilirdi. Evin zirzəmisində vaxtilə odun, kömür, ehtiyat ərzaq məhsulları və təsərrüfat alətləri saxlanılardı.

2. *Şirinbəy Hüseyn oğlu Şıxəliyevin yaşayış evi*

Qeyd olunduğu kimi, sənətkarlığın inkişafı yaşayış evlərinin tikintisinə, memarlıq həllərinə də təsir göstərmişdir. XVIII-XIX əsrlərdə Şəkidə şəbəkə sənətinin sürətli inkişafı nəticəsində, Şəki Xan sarayında, Şəkixanovların evində tətbiq olunan bədii-memarlıq ənənələrinə – vitraj tipli şəbəkə pəncərələrə, şəbəkə üsulu hazırlanmış tavanlara və başqa detallara xalq yaşayış evlərində də təsadüf olunurdu. Əhalinin nisbətən varlı təbəqəsinə məxsus yaşayış evlərində bu üslubda hazırlanmış pəncərələrə, qapılara, tavan naxışlarına üstünlük verilirdi. Şəhərin Ə. Haqverdiyev küçəsində (keçmiş Ağamalıoğlu küçəsi) yerləşən Şirinbəy Hüseyn oğlu Şıxəliyevlərə məxsus ikimərtəbəli yaşayış evində də şəbəkə üsulu ilə hazırlanmış pəncərələrdən istifadə edilmişdir. Sözügedən yaşayış evi *ənənəvi işıqlı evlərin* nümunələrindən biri sayılır. Evin bünövrəsi çay daşından divarları isə kvadrat formalı çiy kərpicdən inşa edilmişdir. Dördsinəli dam çardağı kirəmit yapıqla örtülmüşdür. Tikilinin əsas fasadı gündoğana – şərqə istiqamətləndirilmişdir.

Yaşayış evi ikimərtəbəli planlaşdırma strukturunda, otaqların anfilad (Salamzadə və Sadıqzadə, 1961, s. 55) sistemli yerləşdirilməsi ilə xarakterizə edilir. Evin birinci mərtəbəsində iki otaq və onların arasında dəhliz yerləşir. Həyətdən olan giriş qapısı dəhlizə açılır və buradan isə hər iki otağa keçid qapısı mövcuddur. Qapılar ikitaylıdır. Otaqların, eləcə də dəhlizin interyeri buxarı, taxça, divar şkafı, yük yeri, rəflə təchiz edilmişdir. Yerləşgələrin döşəməsi torpaqdan olub, daxili hündürlüyü 250 sm-dir. Tavanı (səqfi) açıqdır, milaltı taxtadandır. Otaqların tavan milləri altına evin uzununa paralel iki dördkünc tir uzadılmışdır. Otaqlarda və dəhlizdə olan taxçaların eni 60 sm, hündürlüyü 70 sm, dərinliyi 40 sm, döşəmədən hündürlüyü 90 sm-dir. Yük yerinin eni 120 sm, hündürlüyü 150 sm, dərinliyi 40 sm, döşəmə səthindən hündürlüyü 30 sm-dir. Divar şkaflarının həcmi taxçaların həcminə bərabərdir. Hər otağın iki kiçik həcmli (60×80 sm) pəncərəsi həyətə açılır. Birinci mərtəbə ilə ikinci mərtəbə arasındakı əlaqə dəhlizdə yerləşən ensiz, yüksək mailliyi olan taxta pilləkən vasitəsilə həll edilmişdir. Otaqların divarları daxildən ağ torpaqdan hazırlanmış singir suvaqla suvanmışdır.




Nuxa şəhərində III. Şıxəliyevin yaşayış binası:
*1)* fasad; 2) I mərtəbənin planı; 3) II mərtəbənin planı;

Evin ikinci mərtəbəsinin plan-quruluşu, demək olar ki, birinci mərtəbənin plan-quruluşunu təkrarlayır. Burada da iki böyük otaq və onların arasında dəhliz funksiyasını yerinə yetirən kiçik (2×3,3 m) otaq yerləşir. Lakin ikinci mərtəbədəki yerləşgələrin birinci mərtəbədəki yerləşgələrdən əsas fərqi onların pəncərələrinin otaqların ön divarı ölçüsünə bərabər olan şəbəkədən hazırlanmış olmasıdır. Günəş şüalarının şəbəkənin rəngarəng şüşələrdən süzülərək otaqlara rəngli naxışlar salması interyerə xüsusi estetik görkəm bəxş edir.

İkinci mərtəbədəki otaqlar da buxarı, yük yeri, taxça və rəflə təchiz edilmişdir. Bu mərtəbənin də döşəməsi torpaqdan, tavanı isə eynilə birinci mərtəbədəki kimidir. Otaqların daxili hündürlüyü döşəmədən dam milləri üstünə düzülmüş taxta pərdilərədək 3 m-dir. Lakin döşəmədən dam milləri altına bütün hər iki otaq boyu uzadılmış qoşa tirlərə qədər olan məsafə (hündürlük) 2 m 60 sm-dir. İkinci mərtəbədəki otaqların xariclə əlaqəsi evin şimal otağı səmtində olan daş pilləkənlədir. Eni 1 m olan bu pilləkənin otaq qapısı önündə 1 m² sahəyə malik olan pilləkənbaşı sahəsi vardır. Sahənin ətrafı iki tərəfdən məhəccərlənmişdir. İkinci mərtəbəyə çıxış vəzifəsini görən bu daş pilləkənin alt boşluğuna həyət tərəfindən qapı qoyulmuş və ailə tərəfindən anbar kimi istifadə edilir. Evin ikinci mərtəbəsindəki şimal otağının pərdi taxtalarının birində onun tikilmə tarixi hicri təqvimi ilə 1240-cı il göstərilmişdir. Buradan aydın olur ki, ev XIX əsrin birinci yarısında (1824-25-ci illərdə) tikilmişdir. Evin dam çardağına ikinci mərtəbənin pilləkəninə söykənən taxta pilləkənlə qalxmaq mümkündür. Yaşayış evi həyət sahəsinin qərb tərəfində yerləşdirilmişdir.

Təsvir edilən evin yığışdırılması, səliqə-sahmana salınması yuxarıda göstərilmiş ənənəvi evlərin yığışdırılması kimidir. Qışda otaqlar buxarı vasitəsilə qızdırılır. Buxarının tüstüsü dam çardağının

altına çıxır. Haqqında bəhs edilən yaşayış evi, təəssüflər olsun ki, hazırda qəzalı vəziyyətdədir. Bu növ ikimərtəbəli ənənəvi işıqlı evlər silsiləsində olan evlər zonada, demək olar ki, çox azdır. Bunun tək-tək nümunəsi Şəki şəhərində qalmışdır.

3. *Şirinovların yaşayış evi (Ağaşirinovların evi inv. nöm. 4996-33)*

Xalq arasında Şirinovların yaşayış evi kimi tanınan tarixi binaya "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 noyabr 2021-ci il tarixli, 338 saylı qərarı ilə Ağaşirinovların evi (inv. nöm. 4996-33) kimi yerli əhəmiyyətli abidə statusu verilmişdir.



Yaşayış evi XX əsrin əvvəllərində inşa edilmişdir. Həmin dövrdə inşa edilən yaşayış evləri işıqlı evlər tipinə mənsub olsa da, bir sıra məişət memarlıq elementlərinin forma və keyfiyyətləri ilə əvvəllər təsvir və tədqiq edilmiş yaşayış evlərindən fərqlənir. Bu qrup evlərin yerləşgələrinin pəncərələri yuxarıda təsvir edilən ənənəvi işıqlı evlərin pəncərələrinə nisbətən daha böyük səthli olub, döşəmə səthindən 60-100 sm hündürdə yerləşir. Bu evlərdə yerləşgələrin – otaqların daxili hündürlüyü 260-400 sm arasında, döşəməsi və tavanı taxtadan olur. Evlərin daxili daha çox işıqlıdır. Ona görə də bu evləri *müasir işıqlı evlər* tipinə aid edirlər. Şirinovlara məxsus yaşayış evi yarımzirzəmi üzərində iki mərtəbəli inşa edilmişdir. Binanın əsas fasadı cənub istiqamətinə yönləndirilmişdir. Tikintisində yerli tikinti materiallarından; sındırılmış çay, yonulmuş qaya daşından və bişmiş kərpicdən istifadə olunmuşdur. Evin zirzəmisində dörd otaq, bir dəhliz yerləşir. Otaqlara sərbəst giriş-çıxış dəhliz vasitəsilə təmin edilmişdir. Yaşayış evinin mərtəbə planları da zirzəminin plan quruluşuna oxşardır. Belə ki, hər iki mərtəbədə mərkəzdə dəhliz, yanlarda isə otaqlar yerləşir.

Binanın birinci mərtəbəsi iki otaq (352×520 sm), dəhliz və salondan ibarətdir. Otaqlar binanın şərq, salon isə qərb istiqamətində yerləşir. Otaqları bir-biri ilə ara qapısı vasitəsilə əlaqələndirilmişdir. Eyni zamanda dəhlizdən hər bir otağa ayrıca giriş qapısı açılır. Hər iki otaqda və salonda ənənəvi işıqlı evlərə xas olan buxarı mövcuddur. Otaqların ara divarının orta hissəsində silindr formalı divar sobası yerləşdirilmişdir. Salondakı buxarı isə nəfis tərtibatda, xüsusi zövqlə işlənmişdir. Birinci mərtəbədəki otaqların, salonun və dəhlizin döşəmələri, eləcə də tavan örtükləri taxtadandır. Salonun şərq divarında iri həcmli üç divar şkafı yerləşir. Qərb divarında dörd, cənub divarında isə iki pəncərə salonun təbii işıqlandırılmasını təmin edir. Evin ikinci mərtəbəsinə dəhlizdən qalxan dar taxta pilləkən vasitəsilə çıxış nəzərdə tutulmuşdur. İkinci mərtəbənin plan quruluşu birinci mərtəbənin plan həllini təkrarlayır.

İkinci mərtəbədəki otaqların və dəhlizin döşəmələri, eləcə də tavan örtükləri taxtadandır. Otaqların daxili hündürlüyü 380 sm, dəhlizin eni isə 204 sm təşkil edir. Dəhlizin baş hissəsində yerləşən qapı

binanın ikinci mərtəbəsində yerləşən eyvana açılır. Eyvan binanın küçəyə yönəlmiş əsas fasadında kompozisiya bütövlüyünü təmin edən memarlıq elementi olmaqla yanaşı, vaxtilə binanın estetik görünüşünün formalaşmasında da xüsusi rol oynamışdır. Təəssüflə qeyd olunmalıdır ki, inşa edildiyi dövrdə binanın fasadlarını bəzəyən eyvanlar dövrümüzə gəlib çatmamışdır. Zona əhalisinin yaşayış fonduna daxil olan, yuxarıda təsvir və tədqiq olunan evlərdən (Mirzə Fətəli Axundzadənin evi ənənəvi işıqlı evlər, Şirinbəy Hüseyn oğlu Şıxəliyevin yaşayış evi ənənəvi işıqlı evlər, Şirinovların yaşayış evi isə müasir işıqlı evlər tipinə aid edilir) başqa da Şəki şəhərində və kəndlərində günümüzə gəlib çatan, maraqlı plan və fasad görünüşü ilə seçilən yaşayış evləri mövcuddur. Həmin evlərdən Şəki milyonçusu olan M. S. Əliyevin evini (hal-hazırda həmin binada pedaqoji kollec yerləşir), Dadanovların, Hüseynbəyovların evlərini, Əlicanbəyovların evini, Hacı Musa ağanın evini və başqalarını nümunə göstərə bilərik. Adları sadalanan yaşayış evləri memarlıq xüsusiyyətlərinə görə zona əhalisinin təsnif etdiyi *müasir işıqlı evlər* tipinə aid edilir. Bu tip evlərin interyeri (Məmmədova, 2008, s. 77–88) bundan əvvəl inşa edilən yaşayış evlərinin interyerindən öz müasirliyi ilə seçilir. Belə evlərin otaqlarının divar səthlərində ənənəvi işıqlı evlərdə olduğu kimi, yük yeri, sandıq dilovu (sandıq taxçası) və rəf yerləşmir. Lakin evin əşyalarının yerləşdirilməsində, səliqə-sahmanında bütün bunları müasir mebellər (həmin dövr üçün müasir sayılırdı) – çarpayı, şkaf, şifoner, bufet, miz əvəz edirdi. Müasir mebellərlə yanaşı, yenə də bu tip evlərin interyerinin bəzədilməsində yerli sənətkarların əl işi olan, tərtibatı müəyyən dərəcədə bəzəkli portalı xatırladan dəbdəbəli buxarılara, böyük həcmli, qapılı divar şkaflarına, yenə də yerli ustaların əl işi olan divardan asılan kiçik və orta ölçülü və ya bədnüma güzgülərə (Nəbiyev, 2023, s. 141) xüsusi yer verilirdi.

Qeyd etmək lazımdır ki, Şəki-Zaqatala bölgəsində, xüsusilə də Şəki yaşayış evlərində buxarılar funksionallığı ilə yanaşı, otağın tərtibatında, interyer görünüşündə xüsusi əhəmiyyət daşıyırdı. Xalq yaşayış evlərində "qarpızı" və "asma" (Azərbaycan etnoqrafiyası, 2007, s. 71) buxarılardan geniş istifadə olunurdu.

Həmin dövrdə otaqların qızdırılmasında buxarılardan daha çox silindr və ya düzbucaqlı parallelepiped formalı divar sobalarına (divar peçlərinə) üstünlük verilirdi. Adından da göründüyü kimi, divar sobaları iki otağı və ya otaqla dəhlizi birləşdirən divarın içərisində bişmiş kərpiclə döşəmədən tavana kimi hörülürdü. Sonradan üzəri qara rənglə boyanmış dəmir listlərlə bağlanırdı. Sobanın divarın içində tikilməsində məqsəd hər iki yerləşgənin eyni temperaturda qızdırılmasına səbəb olmaqla yanaşı, həm də əlavə yer tutmaması idi. Zona əhalisinin yaşayış fonduna daxil olan bu tip yaşayış evlərinin tikintisi XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə kimi davam etmişdir. Haqqında bəhs edilən yaşayış evləri zonanın ipək ticarəti və sənayesi ilə məşğul olan tacirlər, sahibkarlar, sənətkarlar, yerli əhalidən olan yüksək rütbəli çar məmurları və digər varlı şəxslər tərəfindən tikilirdi.

XIX əsrin son onilliyində, 1880-ci illərdən başlayaraq, Şəkidə (Nuxada) ardıcıl olaraq bir neçə memar və mülki mühəndis şəhər memarı vəzifəsində çalışmışdır. Şəhərin tənzimlənməsi və yenidən qurulması ilə bağlı həyata keçirilən tədbirlərə nəzarət edən yerli hakimiyyət orqanlarının nümayəndələri olan şəhər memarları, eyni zamanda Şəkidə (Nuxada) inşa edilən tikililərin layihəçiləri idilər. Həmin illərdə layihələr (Mirzəliyeva, 2025, s. 59) Yelizavetpoldakı (Gəncə) quberniya idarəsində təsdiqlənirdi. Layihələrin təsdiqi və şəhər memarının nəzarəti şəhər üçün müəyyən əhəmiyyət kəsb edirdi. Şəhərdə yaşayış evlərinin tikintisinin həcmi nisbətən böyük olduğundan, tikintidə qırmızı xətlərə riayət olunurdu. Həmin illərdə məişət tələbləri nəzərə alınaraq inşa edilən, mürəkkəb memarlıq plan quruluşuna və tərkibinə malik olan bu evlər, bu gün də özlərinin mədəni rahatlığını qoruyub saxlamaqdadır.

## Nəticə

Etnoqrafik baxımdan Şəki-Zaqatala zonası əhalisinin tikinti fonduna daxil olan, günümüzə gəlib çatan yaşayış evlərinin əksəriyyətini müxtəlif plan quruluşunda olan, geniş pəncərəli, damları

çardaqlı olan, bir və ikimərtəbəli işıqlı evlər tipinə mənsub yaşayış evləri təşkil edir. İşıqlı evlər məişət rahatlığı cəhətdən uzun əsrlərdən bəri zona əhalisinin istifadəsində olmuş və zaman keçdikcə ictimai-iqtisadi, siyasi və mədəni tələblərə uyğun şəkildə dəyişərək hazırkı formasına gəlib çatmışdır. Bu ev tipləri zonanın yerli inşaat materialları əsasında: yonulmuş qaya daşı, sındırılmış çay daşı, bişmiş və çiy kərpicdən inşa edilərək formalaşmışdır.

Coğrafi cəhətdən zonanın mərkəzində yerləşən Şəki şəhəri zona əhalisinin tikinti mədəniyyəti sahəsində də əsas yeri tutmuşdur. Zona əhalisinin yaşayış evi fondunun əksəriyyətini təşkil edən işıqlı evlər tip və növlərinin ən mükəmməl və inkişaf etmiş nümunələri Şəki şəhərində mövcuddur. Şəki şəhəri inşaat materiallarının istehsalı (Nəbiyev, 2023) işində də həmişə öndə olmuşdur. Bu səbəblə də zonanın ən bacarıqlı sənətkarları burada cəmləşmişdir. Zona əhalisinin tikinti fonduna daxil olan, etnoqrafik baxımdan yuxarıda təsvir və təhlil edilmiş üç yaşayış evi və bu qəbildən olan digər işıqlı evlər tipinə aid olan evlər, yaşayış məskənlərinin keçib gəldiyi uzun inkişaf prosesini özündə əks etdirən tikililərdəndir. Yerli inşaat ənənələrinin irsi davamı olan bu tikililər – yaşayış evləri, memarlıq plan quruluşunda, interyerində məişət rahatlığını təmin etməklə yanaşı, dəbdəbəli eksteryer görünüşü ilə aid olduqları küçənin tərtibatında, şəhərin memarlıq simasının formalaşmasında mühüm əhəmiyyət kəsb edirlər.

## Ədəbiyyat


*Azərbaycan etnoqrafiyası* (Cild 2). (2007). Şərq-Qərb.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarında dəyişiklik edilməsi haqqında Qərar. № 338.* (2021, 3 noyabr) e-qanun.az. https://e-qanun.az/framework/48443

Cəfərzadə, İ. M. (1956). Azərbaycan tarixinin ən qədim dövrü (Arxeoloji məlumatlara əsasən). *Azərbaycanın qədim tarixinə dair oçerklər.* Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

Həbibullayev, O. H. (1959). *Kültəpədə arxeoloji qazıntı.* Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı.

Həsənova, V. N. (2020). Azərbaycanın mədəni irsində çiy kərpicdən hörülmüş dairəvi və düzbucaqlı tikililərin yeri. *Elmi iş, 5*(54), 165–168. https://doi.org/10.36719/AEM/2007-2020/54/165-168

Məmmədova, İ. R. (2008). *Şəki yaşayış evlərinin interyeri.* Elm.

Mirzəliyeva, S. Ş. (2025). Tarixin izlərini günümüzə daşıyan memarlıq inciləri: Zülfüqarovların mülkləri. *Elmi iş, 19*(3), 54–60. https://doi.org/10.36719/2663-4619/112/54-60

Nəbiyev, Ə. (2023). *Şəki haqqında tarixi-etnoqrafik materiallar.* Şəki Ensiklopediyası.

Nəsirli, M. H. (1975). *Azərbaycan SSR Şəki-Zaqatala zonası əhalisinin yaşayış evləri.* Elm.

Rzayev, N. (1992). *Əcdadların izi ilə.* Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi.

Salamzadə, A. B., Avalov, E. B., Salayeva, R. D. (1979). *Azərbaycanın tarixi şəhərlərinin rekonstruksiya problemləri.* Elm.

Salamzadə, Ə. B., Sadıqzadə, Ə. Ə. (1961). *XVIII–XIX əsrlərdə Azərbaycanda yaşayış binaları.* Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.